

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 159 (21.569)

26 avqust 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanı öyrənən və öyrədən elmi mərkəz

## Naxçıvanşünaslıq Mərkəzi



*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın qədim tarixi və zəngin mədəniyyəti xalqımızın özünəməxsus milli dəyərlər sisteminin formalaşmasında əhəmiyyətli rol oynayıb. Tarix elmi Naxçıvanın zənginliyini hələlik tam aça bilməsə də, bu zənginliyi öyrənmək də indiyədək müşkül iş olub. Əsrlərdir müxtəlif maraqların kəsişdiyi bu torpaq haqqında mənbələrdə yanlış fikirlər də yer alıb, reallığı əks etdirən faktlar da. Yalnız müstəqilliyimizin bərpasından sonrakı dövrdə bu istiqamətdə əsaslı addımlar atılıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin* ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Bizim əsas məqsədimiz Naxçıvan tarixini hərtərəfli öyrənmək, tədqiq etmək, onları elmi və populyar kitablarda dərc etmək, təbliğat materiallarında istifadə etməkdir"*** *fikri bu addımların əsas istiqamətini təşkil edib.*

Naxçıvanı öyrənən elmi sahə kimi Naxçıvanşünaslığın əsası 1996-cı ildə muxtar respublikada keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq Simpoziumu ilə qoyulub. Məhz bundan sonra Naxçıvanın tədqiq və təbliğ edilməsini nəzərdə tutan ayrıca bir elmi mərkəzin – Naxçıvanşünaslıq Mərkəzinin yaradılması zərurətə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılıb, mərkəz üçün bina ayrılıb və əsaslı surətdə yenidən qurularaq Naxçıvanın muxtariyyət tarixinin 89-cu ildönümündə – 2013-cü il fevralın 9-da istifadəyə verilib. Fəaliyyət göstərdiyi ötən dövrdə mərkəz ölkənin ən mükəmməl elmi-tədqiqat müəssisələrindən birinə çevrilib. Mərkəzin kitab və arxiv fondu Naxçıvanşünaslığa dair mühüm çap və arxiv materialları ilə zənginləşdirilib. Qədim tarixə, zəngin mədəniyyətə və dövlətçilik ənənələrinə malik Naxçıvan diyarında min illər ərzində yaranan, formalaşan ən qədim mədəniyyətlər, tarixin müxtəlif dövrlərinin yadigarı olan abidələr, qədimdən müasir dövrümüzədək tarix, ədəbi mühit, yaradıcılıq sahələri, ümumilikdə, xalqın yaratdığı və günümüzə qədər çatdırdığı milli dəyərlər sistemi, adət-ənənələr, son illər muxtar respublikanın sosial-iqtisadi inkişafı, görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığı kimi mühüm əhəmiyyət kəsb edən məsələlər haqqında kitab, jurnal və qəzetlər, xəritə və atlaslar, avtoreferatlar, video və fotomateriallar, sənədli filmlər Naxçıvanşünaslıq Mərkəzində toplanaraq sistemləşdirilib.

Məlumat üçün bildirək ki, son illərdə Naxçıvanın elmi mühitində həyata keçirilən tədbirlər Naxçıvanşünaslığın öyrənilməsi istiqamətində yeni imkanlar açıb, mərkəzin müxtəlif mənbələrlə zənginləşdirilməsində mühüm rol oynayıb. Belə ki, əldə olunan materiallar əsasında Naxçıvanşünaslığa aid mindən artıq monoqrafiya, kitab, elmi məqalə, dərslik və dərs vəsaitləri yazılıb, "Naxçıvan Abidələri Ensiklopediyası", ikicildlik "Naxçıvan Ensiklopediyası", "Naxçıvan tarixi atlası" və "Naxçıvan tarixi" çoxcildliyi nəşr edilib, onlarla sənədli film çəkilib.

Mərkəzdə olarkən öyrəndik ki, burada Biblioqrafiya proseslərinin avtomatlaşdırılması, Elmi-metodik, Xidmət, Komplektləşdirmə, Kitabişləmə və kataloqlaşdırma şöbələri, skaner otağı, kitabsaxlayıcı fond, oxu və dövri mətbuat zalı, elektron oxu zalı, arxiv və sair yerləşir. Mərkəzin kitabsaxlayıcı fondunda 3000 nüsxədən artıq çap materialı vardır ki, bunların 2550 nüsxəsi kitab, qalanları isə qəzet və jurnal materiallarından ibarətdir. Mərkəzin kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunub, elektron kitabxana və elektron arxiv mənbələri zənginləşdirilib. Hazırda bura müraciət edən istifadəçilər onlara verilən şəxsi parol vasitəsilə elektron informasiya köşkünə yaxınlaşaraq istənilən kitabı sifariş edə bilərlər. Elektron köşk istifadəçilərə kitab fondunun elektron kataloqu ilə tanış olmaq, sorğulara operativ cavab almaq və virtual sifariş imkanı yaradır. Oxu və dövri mətbuat zalında isə istifadəçilər üçün fonddakı kitablardan, qəzet və jurnallardan, eləcə də internetdən istifadə imkanı yaradılıb. İstifadəçilər elektron kataloq vasitəsilə mərkəzin fondunda olan ədəbiyyatlardan, sənədlərdən, əlyazmalardan, video və audio materiallardan, fotolardan və xəritələrdən istifadə edə bilərlər. Üç dildəki ***"www.e-merkez.alimeclis.az"*** internet saytı mərkəz ilə səmərəli informasiya mübadiləsi aparmağa imkan verir. Qeyd edək ki, mərkəzin kitabsaxlayıcı fondunda olan bütün kitabların elektron variantı və kataloqu yaradılaraq internet saytında yerləşdirilib. Ötən dövrdə mərkəzin elektron saytından 11 mindən artıq oxucu istifadə edib.

Naxçıvanşünaslıq Mərkəzində aidiyyəti materialların qorunub saxlanılması ilə yanaşı, onların gənc nəslə öyrədilməsi və təbliği də əsas vəzifələrdəndir. Bu məqsədlə ümumtəhsil məktəbləri şagirdlərinin, ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin iştirakı ilə Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər keçilir. Fəaliyyəti dövründə muxtar respublikadakı ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivlərinin, Naxçıvan Dövlət, "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Musiqi, Tibb, Dövlət Texniki kollecləri tələbələrinin iştirakı ilə Naxçıvanşünaslıq Mərkəzində "Muxtariyyətin 90 ili", "Kənd təsərrüfatı ili", "İnkişafın 20 ili", "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı", muxtar respublikanın sosial-iqtisadi inkişafı, tarixi abidələr, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti haqqında 213 açıq dərs və tədbir keçirilib, bu tədbirlərdə 4151 dinləyici iştirak edib.

***Bəli, bu gün Naxçıvanşünaslığı elmi sahə kimi öyrənmək və təbliğ etmək mərkəzin qarşısında duran əsas vəzifələrdəndir. Ümumilikdə isə bu amil Azərbaycan tarixinin öyrənilməsinə, bu tarixin real faktlar əsasında təbliğinə yandırılan bir işıqdır. Buna görə də Naxçıvanşünaslıq bir elm sahəsi kimi Naxçıvanın dünəninin öyrənilməsində, bu gününün yazılmasında və gələcəyinin qurulmasında müstəsna əhəmiyyətə malikdir.***

✍ **Səbuhi HƏSƏNOV**

## Quruculuq tədbirləri Kəngərli rayonunu daha da müasirləşdirib



***Cari ilin yanvar-iyul ayları Kəngərli rayonu üçün də uğurlu olub. Bu dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 27277,2 min manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 4,8 faiz artaraq 25843,2 min manat təşkil edib.***

Bəhs olunan dövrdə yaradılan müasir infrastruktur, istifadəyə verilən rahat yollar, sosial obyektlər, xidmət sahələri yaşayış məntəqələrimizin görkəmini dəyişib. Rayon mərkəzində abadlıq işləri aparılıb, yol kənarlarında işıqlandırma sistemi quraşdırılıb. Yurdçu kəndində 270 şagird yerlik tam orta məktəb üçün yeni bina, kənd və xidmət mərkəzləri tikilərək istifadəyə verilib, kənd mərkəzində feldşer-mama məntəqəsi üçün otaqlar ayrılıb, müasir avadanlıqlarla təchiz olunub. Kənddaxili yollar yenidən qurulub. Bu yaşayış məntəqəsində yeni ATS quraşdırılıb və poçt şöbəsi yaradılıb. Quruculuq tədbirləri çərçivəsində 270 metr yeraltı optik xətt, 60 yeni abonentə telefon xətti çəkilib.

Hazırda Qıvraq qəsəbə tam orta məktəbində və Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində təmir işləri, Qıvraq qəsəbəsində 222 yerlik uşaq bağçası üçün binanın inşası davam etdirilir.

Rayonda kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılıb. Bunun üçün müntəzəm olaraq həyata keçirilən meliorativ tədbirlər cari ilin ötən dövründə də davam etdirilib. Belə ki, yaşıllıq və əkin sahələrinin suvarılması məqsədilə 8650 metr uzunluğunda yeni suvarma xətləri çəkilib, Qabıllı kəndində 1 subartezian quyusu istifadəyə verilib, Qıvraq qəsəbəsində suvarma məqsədilə 1 subartezian quyusu bərpa edilib. Qabıllı kəndində 900 metr, Şahtaxtı kəndində 2700 metr su xətti çəkilib, supaylayıcılar quraşdırılaraq kənd sakinlərinin istifadəsinə verilib. Bu tədbirlərin davamı kimi rayonun Böyükdüz və Xok kəndlərinin 107 hektar sahəsində qapalı suvarma şəbəkəsi qurulur.

Əhalinin elektrik enerjisindən səmərəli istifadəsini təmin etmək üçün yeni elektrik xətlərinin çəkilişi və bərpası davam etdirilib, 4,1 kilometr uzunluğunda elektrik verilişi xətləri yenilənib. Bir ədəd transformator əsaslı təmir edilib, 45 yeni mənzil elektrik enerjisi ilə təmin olunub.

Bəhs edilən dövrdə rayonun qəsəbə və kəndlərində 2397 abonentin qaz xəttinə və qazişlədici cihazlarına baxış keçirilib, 106 ədəd sayğac normal işləmədiyi üçün yenisi ilə əvəz edilib. Bu dövrdə 210 ədəd yeraltı keçid polietilen boru ilə əvəz edilib, 516 metr qaz xəttinin yeri dəyişdirilib, 420 metr dəmir boru polietilen boru ilə əvəz edilib, 597 metr yeni qaz xətti çəkilib, 89 yeni abonent təbii qazla təmin olunub.

Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən Naxçıvan memarlığının nadir incilərindən sayılan Qarabağlar Türbə Kompleksində bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasına başlanılıb.

***Bu gün muxtar respublikamızda ümumi daxili məhsul istehsalında ilk yeri sənaye sahəsi tutur. Cari ildə də bu sahədə gözəçarpan nəticələrə nail olunub. Belə ki, ilin yeddi ayı ərzində sənaye üzrə 591 milyon 241 min 700 manat həcmində sənaye məhsulları istehsal edilib. Bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 3,3 faiz çoxdur.***

## Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi məhsul istehsalını ildən-ilə artırır



"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin də qazanılan uğurlarda payı var. Bu müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılıb. Müəssisədə müasir texnoloji avadanlıqların quraşdırılması keyfiyyətli məhsul istehsalına imkan verir.

Onu da qeyd edək ki, müəssisəyə xammal Kəngərli rayonunun ərazisindən gətirilir. Müəssisədə sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirmək məqsədilə mövcud imkanlardan səmərəli istifadə edilir. Blok şəklində istehsal sahəsinə daxil olan xammal ilkin olaraq müəyyən ölçülərdə kəsilərək cilalanır. Beş mərhələdə ayrı-ayrı dəzgahlardan keçdikdən sonra sifarişə uyğun formalara salınaraq dekorativ bordür, travertin döşəmə, çapçı daşlar, sütunlar və müxtəlif formalı fiqurlar istehsal edilir, muxtar respublikada fəaliyyət göstərən tikinti təşkilatlarına yola salınır. Ümumiyyətlə, müəssisədə cari ilin yeddi ayı ərzində travertin və mərmər plitələr, mozaika, karniz və bordür olmaqla, 7 min 197 ton daş məhsulları istehsal edilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan qədimliyi qədər möcüzələr diyarıdır. Burada hər obanın özünəməxsus gözəllikləri var. Xüsusən də dağlar qoynuna sığınan yaşayış məskənlərinin. Elə götürək yüksəkliklərdə qərar tutan Gərməçatağı. Babək rayonunun qeyri-adi spesifik cəhətlərə malik bu kəndi ecazkarlığı baxımından turizm üçün də son dərəcə faydalıdır desək, – yanılmarıq. Çünki füsunkar təbiəti, qeyri-adi təbii quruluşu, yaşıllıqlar qoynunda çağlayan buz bulaqları və sair xüsusiyyətləri ilə yanaşı, ab-havası da bunu təsdiqləyər.*

# Gərməçataqda bir gün

## *Bu sərhəd kəndi həm də gözəl istirahət məkanıdır*

Bu günlərdə yolumuzu Gərməçataq kəndinə saldıq. Yolboyu gördüyümüz mənzərələr bizi heyranlıq cazibəsinə almışdı. Kəndə aparan yol dağların ətəyi ilə burula-burula hündürlüyə qalxırdı. Şose yolun sol tərəfindən axan çay ilan kimi qıvrıla-qıvrıla məcrasına doğru tələsirdi.

Gərməçatağa belə gözəllikləri seyr edə-edə gedirik. Maşınımız Aşağı Buzqov kəndinə gedən yoldan ayrılıb, dağ yoluna burulur. Məlumat üçün bildirək ki, getdiyimiz yol cari ildə yenidən qurulub. Altı metr enində və 6 kilometrlik məsafədə təmir işləri aparılıb, 10 yerdə selötürücü kanallar tikilib.

Abad yolla daha yüksəkliyə qalxdıqca gözəl mənzərələr bir-birini əvəz edir. Ətrafdakı həmərsin, yemişan, kəklikotu, dağ nanəsi, boz daşların üstündə şaxələnib yayılan, meyvələri yetişib partlayan çöl qarpızı göz oxşayır.

Kəndin başlanğıcındakı hündür yerdə dayanırıq. Buradan Gərməçataq ovuc içi kimi görünür. Kənardan baxanda, bir az obrazlı desək, bu sərhəd yaşayış məntəqəsi mahir bir rəssamın yaratdığı tabloya bənzəyir. Yaşıllıqlar qoynunda bəyaz çardaqlı evlər ağ göyərçinləri xatırladır. Kəndi ikiyə bölən, Günəş şüasında suyu bərq vuran dağ çayı, üzüyuxarı Günəşə boy verən köklü ağaclar... Demək olar ki, bu yurd yerindən Tanrı heç nəyi əsirgəməyib. Gözəllik qələmini elə saxavətlə çəkib ki, heyranlığımızı gizlədə bilmirik. Kəndin coğrafi mövqeyinə uyğun olaraq Gərməçatağa hündürlükdən enməlisən. Bu gözəlliyi yaxından duymaq üçün piyada enməyə qərar veririk.

Yolüstü son illərin bu kəndə quruculuq ərmağanı olan məktəb binası diqqətimizi çəkir. İlk olaraq bu ünvana üz tuturuq. 2002-ci ildə tikilən 130 şagird yerlik məktəbin həyətyanı sahəsindəki meyvə bağı göz oxşayır. Məktəbdə yaradılmış tarix muzeyində qorunan eksponatlar uşaqların tariximizə məhəbbət hissini gücləndirir. Öyrənirik ki, dövlətin yaratdığı şəraiti, tədrisə göstərdiyi qayğını pedaqoji kollektiv dəyərləndirməyə çalışır.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Lazım Mirzəyevdən kənd sakinlərinin gün-güzəranı haqqında ətraflı məlumat alırıq. Deyir ki, Gərməçataqda 130 təsərrüfat var. Kənd əhalisinin sayı 529 nəfərdir. Kənddə feldşer-mama məntəqəsi, kitabxana, klub fəaliyyət göstərir. Dağ kəndinin sakinləri öz gün-güzəranlarını yaxşılaşdırır, kənd təsərrüfatının müxtəlif sahələrini inkişaf etdirirlər.

Kərə təpə, Yazı yurdu dağlarının qoynundan çağlayan Sarı bulaq, Novruz bulağı, Qoşa bulaq, Pir bulağının gur suyu nəinki insanları içməli su ilə təmin edir, hətta onlara bağ-bağçalarını da suvarmaq imkanı qazandırıb. Kənddə vurulan iki artezian quyusu isə su tutmayan yerlərin suvarılmasında insanların köməyinə çatır.

Burada hər bir evə telefon çəkilib, evlər fasiləsiz elektrik enerjisindən və təbii qazdan istifadə edirlər. Yəni rahat yaşamaq üçün sərhəd bölgəmiz olan Gərməçataqda dövlət tərəfindən hər bir şərait yaradılıb.

Evlərdən birinin həyət qapısını döyür, güzəranları ilə tanış olmaq üçün içəri daxil oluruq. Gənc bir qız bizi qarşılayır, “xoş gəldiniz”, – deyir və sonra babasını səsləyir. Öyrənirik ki, bu ev 81 yaşlı Əbdülhüseyn Rzayevə məxsusdur. Ağsaqqal kənd sakini kimliyimizi öyrəndikdən sonra üzünə səmimi bir təbəssüm qonur. Bizi evə dəvət edir. Lakin bağçada oturmaq istəyirik. Ev sahibi bizimlə razılaşır. Şirin söhbət başlayır. Sanki ailənin çoxdankı tanışı kimi bizimlə söhbət edən Əbdülhüseyn kişi bir oğul, dörd qız atasıdır. Övladlarını ev-ocaq sahibi edib. Yaşayışlarından da çox razıdır. Bunu söhbətinin əvvəlində də, axırında da dövlətimizə dua etməklə bildirir. Deyir ki, müxtəlif idarələrdə çalışıb, sürücü işləyib, yaxşı da qazanıb. Amma bu gün dövlətin verdiyi pensiya daha bərəkətlidir: – Aldığımız pensiya yaşayışımızı təmin edir. Hər şəraitimiz, suyumuz, qazımız, işığımız var. Daha nədən gileylənməliyik? Bir vaxtlar kimin ağlına gələrdi ki, dağ kəndindən bir zənglə dünyanın o biri başı ilə danışasan.

Əbdülhüseyn dayı kəndin tarixi barədə də danışır. Deyir ki, bu kəndin tarixi çox qədimdir. Eşitmişəm ki, qədimlərdə Kərim adlı yaşlı adamın yeni yurd salmaq məqsədilə yola çıxması qohumlarını da onun ardınca aparıb. Arxadan gələnlər bir-birinə “tez gedək ki, Kərimə çataq”, – deyiblər. Ağsaqqala bu yerdə çatıblar və onun məsləhəti ilə burada məskunlaşıblar. Beləcə, bu kənd binə olub. Elə o vaxtdan da kənd “Gərməçataq” adlandırılıb.

Əbdülhüseyn dayı deyir ki, burada əzəldən evlər dağların sinəsində, çayın kənarlarında üzbəüz tikilib. İnsanlar heyvandarlıqla, meyvəçiliklə yanaşı, taxılçılıqla da məşğul olublar. Taxıllarını su dəyirmanında üyüdüblər. Hər kəs bir parça çörəyini qazanıb, sakit şəraitdə dolanırmış. Sonralar düşmən ermənilər gəlib kəndin yuxarısındakı torpaqlarımızda – Sultanbəy kəndində yerləşiblər və ziyanları da az olmayıb. Ötən əsrin əvvəllərində gərməçataqlılara diş qıcayan düşmən qonşular əsrin sonlarında, eləcə də ötən əsrin 90-cı illərində yenidən namərdliklərini göstəriblər. O illərdə kənddə ciddi döyüşlər gedib. Gərməçataqlıların köməyinə gələn igid oğullardan Vəli Zeynalov şəhidlik zirvəsinə yüksəlib. Altıyaşlı Amilə Əmirova həlak olub. Evlər dağıdılıb, heyvan sürüləri oğurlanıb, ancaq kənd sakinləri öz yurd yerlərinə bağlılıqlarını sübut ediblər. İndi əsgərlərimiz bu yaşayış məskənimizin keşiyində ayıq-sayıq dayanıblar. Gərməçataq sakitlik, firavanlıq şəraitində inkişaf edir.

Kənd sakini Həmzə Sadiqovla da görüşüb həmsöhbət oluruq. 80 yaşlı bu tibb işçisi uzun illər gərməçataqlıların sağlamlığı keşiyində dayanıb.

Həmzə Sadiqov deyir ki, Gərməçatağın dağları şəfa mənbəyidir. Çaşır, bolu, quzuqulağı, quşquyruğu, quşəppəyi, minbir dərdin dərmanı olan müalicəvi otları var. Solmazçiçəyi, səhlab, qantəpər, bağayarpağı, dəvədabanı, əməköməci və daha yüzlərlə bitkinin hər birinin neçə dərdin dərmanıdır. Deyir ki, 115 yaşdan çox yaşayan nənəsi bu otlarla təbib olmayan vaxt xəstələrin dadına çatıb. Əslində, kəndin səfalı havası, bitkiləri, insanların əməksevərlikləri gərməçataqlıları sağlam saxlayıb, dava-dərman bilməyiblər. Odur ki, Gərməçataqda uzunömürlü insanlar yaşayıb və indi də belə insanlar var.

Sonra kəndi gəzirik. Kənddə 128 nömrəlik ATS quraşdırılıb. Bundan başqa, bu yaşayış məntəqəsinə optik kabel çəkilib, Naxtel istifadəçiləri üçün şərait yaradılıb.

*Bəli, Gərməçataq qədimliyi qədər gözəl kənddir. İlk növbədə, onu gözəlləşdirən mehriban, səmimi, qonaqpərvər insanlarıdır. Onları dövlətin bu sərhəd məntəqəsinə göstərdiyi qayğı yaşadır. Elə yay aylarında başqa yerlərdən, xüsusən Bakı şəhərindən bura qonaq gələnlər mehriban insanların evlərində, gözəl təbiət guşəsində dincəlib xoş təəssüratlarla buradan ayrılırlar.*

**Hafizə ƏLİYEVA**

*İstehsal müəssisələri*

# Keyfiyyəti ilə seçilən, alıcı zövqünü oxşayan dizaynla satışa çıxarılan yerli məhsullarımız

## *Yaxud süfrələrimizə bərəkət gətirən “Bərəkət” məhsulları*

***Əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, məşğulluq probleminin əsaslı həlli, əhalinin rifah halının yaxşılaşdırılması Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə həyata keçirilən tədbirlər muxtar respublikanın iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynayır. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə şərait yaradıb. Bu isə ümumi daxili məhsul istehsalında özəl bölmənin payının 87 faiz olması ilə nəticələnib.***





Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli xammaldan səmərəli istifadə olunmaqla, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə müəssisə müasir avadanlıqlarla təmin edilib. Eyni zamanda çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatik yeni xətt istifadəyə verilib. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da məhsulun daha keyfiyyətli istehsalı deməkdir. Daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına öz töhfəsini verən “Gəmiqaya Bərəkət Qida Məhsulları” MMC-də istehsal sahələri ilbəil genişləndirilir. 2011-ci ildə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb, 2012-ci ildə kəpəkli çörək istehsalına başlanılıb. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək yüksəkkeyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanıb. Elə bunun nəticəsidir ki, satışa çıxarılan kəpəkli çörəyə tələbat get-gedə artıb, ötən dövr ərzində kəpəkli çörək istehsalına keçid tam təmin olunub. Cari ildə də alıcı tələbatının öyrənilməsi və buna uyğun olaraq yeni çeşiddə çörək istehsalı diqqət mərkəzində saxlanılıb, kəpəkli unla qarğıdalı ununun qarışığından hazırlanmış qarğıdalı çörəyi istehsalına başlanılıb.

Müəssisədə istehsal olunan digər məhsullar da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli məhsul 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sexində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qat-qat, şəkərçörək, milli şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır. Onu da qeyd edək ki, daxili bazarın tələbatına uyğun məhsullar istehsal edilən müəssisədə istehlakçı tələbatı öyrənilməklə mütəmadi olaraq məhsulun çeşidində və qablaşdırılmasında yeniliklər edilir, daha müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılır. Bu istiqamətdə işlər davam etdirilib, Şərq şirniyyatları istehsalı sahəsində Türkiyənin “Uyğurlar Makina”, İtaliyanın “Braluks” şirkətlərinin istehsalı olan, kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş avadanlıqlar alınıb quraşdırılıb. Alıcı zövqünü oxşayan yeni çeşiddə müasir dizaynda məhsul istehsalına başlanılıb. İstehsal olunan məhsullar muxtar respublikamızın ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən xidmət mərkəzlərində satışa çıxarılıb.

Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsullarının vaxtında tədarük olunması da diqqət mərkəzində saxlanılır, xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Almaniyanın “GEA”, Türkiyənin “Choromel”, “Lipovak” şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb, gündəlik istehsal gücü 15 ton olan süd məhsulları istehsalı sahəsində yüksəkkeyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Tədarük edilən, insan orqanizmi üçün vacib elementlərlə zəngin olan 100 faiz təbii süddən kərə yağı, pendir, qatıq və ayran istehsal olunan bu müəssisədə istehsal prosesi daha da təkmilləşdirilib, daxili bazarın tələbatına uyğun olaraq yeni çeşiddə süd məhsulları bazara çıxarılıb. Cari ildə də bu istiqamətdə işlər davam etdirilib, xamaya olan tələbatı 100 faiz idxal hesabına ödənilən muxtar respublikamızda xama istehsalına başlanılıb, idxaldan asılılıq tamamilə aradan qaldırılıb. Xama nəfis tərtibatla bəzədilmiş 100, 200, 300, ayran 200, kərə yağı 250, 400 qramlıq, 1 və 4 kiloqramlıq, pendir isə 0,5, 1 kiloqramlıq plastik və 17 kiloqramlıq dəmir taralarda qablaşdırılır.

Sanitar-gigiyenik qaydalara ciddi əməl olunan müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və ya hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra istehsala buraxılır.

İldən-ilə fəaliyyəti genişləndirilən müəssisədə çörək sexi 3, digər sexlər isə 1 növbəli iş rejimində fəaliyyət göstərir. Burada 200 nəfər çalışır.

Müəssisədə istehsal olunan məhsulların gələcəkdə ölkəmizin digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulur. Bu məqsədlə kompleks tədbirlər həyata keçirilir.

“Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001 və İSO 22000 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb.

Ayrı-ayrı ticarət obyektlərində alıcı və satıcıların bu yerli məhsullara olan münasibətini öyrəndik. Fərdi sahibkar Nihad Cəfərov dedi: – Əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara üstünlük verilir. Yerli istehsal müəssisələri alıcıların rəğbətini qazanan keyfiyyətli məhsullar istehsal edərək rəqabətqabiliyyətli müəssisələrə çevriliblər.

İstehlakçı Nərmin Vəliyeva: “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi Şərq şirniyyatları, kərə yağı, qatıq, ayran, makaron məhsullarının və bu il istehsalına başlanılan xamanın daimi alıcısıyam. Dadı, tamı ilə seçilən yerli məhsullar vaxtlı-vaxtında mağazalara çatdırılır. Özü də daha münasib qiymətə”.

Fərdi sahibkar Sərxan Bağırov: “Heyvandarlıqla məşğul olan sahibkar kimi onu deyə bilərəm ki, son illər muxtar respublikaya alınıb gətirilən və lizinq yolu ilə sahibkarlara verilən, süni mayalanma yolu ilə yetişdirilən məhsuldar cins mal-qara ət və süd istehsalının artımına səbəb olub. Təbii ki, ət və südün emal olunması üçün yaradılmış müəssisələr sahibkarları alıcı problemi ilə üzləşdirmir. Yəni sahibkarın şəxsi istifadəsindən artıq olan süd “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin tədarükçüləri tərəfindən gündəlik qəbul edilir. Bu həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir”.

**Kərəm HƏSƏNOV**

*26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür. Azərbaycan muğamı xalqımızın tarixini, coğrafiyasını, mədəni həyatını, etnik köklərini özündə yaşadır. Muğam sənətimizdə xalqımızın müdrikliyini, gələcəyə inamını, məhəbbətini, düşüncə və təfəkkürünü, mübarizə və döyüş ruhunu görmək mümkündür. Başqa sözlə, muğam Azərbaycan xalqına xas olan ən gözəl milli-mənəvi dəyərlərin daşıyıcısı olmaqla torpağa bağlılıq, xeyirxahlıq, mərhəmət, milli özünüdərk hissinin ifadəsidir. Muğam hər bir azərbaycanlının mənəviyyatının genetik kodu, ensiklopediyasıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi:* ***“Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları milli sərvətimizdir”.***

*26 avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür*

# Fəlsəfi məzmun və zənginliyi ilə seçilən muğamlarımız milli sərvətimizdir

Azərbaycan muğamının ən mühüm cəhətlərindən biri də musiqi ilə qüdrətli sözün, yəni həqiqi poeziyanın vəhdətdə olmasıdır. Bu qüdrətli musiqini insana, dinləyicilərə çatdırmaq üçün həm də qüdrətli poeziya nümunəsinə ehtiyac duyulur. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX əsrin 20-ci illərindən XX əsrin əvvəllərinə qədər Azərbaycan şəhərlərində mövcud olmuş ədəbi və musiqi məclisləri böyük rol oynamışdır. Şuşa, Ordubad, Bakı, Şamaxı, Lənkəran, Gəncə kimi şəhərlərdə yaranan ədəbi və musiqi məclislərində şairlər, ədiblər, musiqiçilər, ziyalılar, klassik poeziyamızın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Bu məclislər Azərbaycan muğam sənətinin formalaşmasına güclü təsir göstərmişdir. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Əliağa Vahid və başqa şairlərimizin qəzəlləri üstündə oxunan “Rast”, “Şur”, “Segah”, “Çahargah”, “Şüştər”, “Humayun”, eləcə də “Şahnaz”, “Rahab”, “Heyratı”, “Arazbarı”, “Simayi-şəms”, “Mənsuriyyə” və başqa muğamlar tükənməz söz-sənət xəzinəsi kimi milli musiqi mədəniyyətimizi zənginləşdirmişdir.

Azərbaycan muğamları ilk dəfə XX əsrin əvvəllərində bir sıra görkəmli xanəndələrin ifasında qrammofon valına yazılmış, 1930-cu illərdə nota alınmışdır. Azərbaycan muğamının ən mükəmməl elmi əsasını XX əsrdə dahi bəstəkar Üzeyir Hacıbəyov qoymuşdur. Bu dövrdə muğam Azərbaycan bəstəkarlarının, şairlərinin ilham mənbəyi olmaqla qiymətli sənət əsərlərinin meydana gəlməsinə öz təsirini göstərmişdir. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Vasif Adıgözəlov və başqaları muğam sənətinə əsaslanaraq qiymətli sənət nümunələri yaratmışlar. Azərbaycan musiqisində simfonik muğamların yaranması muğam sənətinin rəngarəngliyini, onun ifadə imkanlarının geniş olduğunu göstərməkdədir. Fikrət Əmirovun “Şur”, “Gülüstani-bayatı-şiraz”, Niyazinin “Rast”, Süleyman Ələsgərovun “Bayatı-şiraz” simfonik muğamları, Vasif Adıgözəlovun “Qarabağ şikəstəsi” oratoriyası, Vaqif Mustafazadənin muğam əsasında ifa etdiyi əsərlər, bəstələdiyi musiqilər dünyanın müxtəlif ölkələrində dinləyicilərin qəlbini fəth etmişdir. Bu musiqi əsərləri arasında muğam operası, simfonik və xor muğamları, sonata-muğam, caz-muğam kimi sənət nümunələrinə rast gəlinir ki, bunlar da muğam ənənələrinin yaşadılmasının gözəl ifadəsidir.

XX əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində muğam sənətimiz də yeni inkişaf mərhələsinə qədəm qoymuş, muğam ifaçıları və bu sənəti yaşadanlar qayğı ilə əhatə olunmuşlar. Musiqi mədəniyyəti, o cümlədən muğam sənəti tariximizin ötən əsrin 70-ci illərindən bəri olan dövrü ulu öndərin adı ilə bağlıdır. 80-ci illərin ortalarında Azərbaycan muğamının sədaları respublikamızın hüdudlarını aşaraq xarici ölkələrdə də geniş şəkildə səslənməyə başlamışdır. Məhz bu illərdə muğam sənətinə marağın daha da artması və bir sənət kimi muğama baxışların formalaşması üçün yeni şərait yaranmağa başladı. 1971-ci ildə YUNESKO-nun 50 albomdan ibarət olan “Dünya ənənəvi musiqisinin antologiyası” seriyasına “Azərbaycan musiqisi plastinkası” da daxil edilmiş, 1975-ci ildə Azərbaycan muğamları “Musiqi mənbələri” seriyasında buraxılmışdır.

Müstəqillik illərində də Azərbaycan musiqisinin və muğamının inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. 2002-ci ilin noyabr ayında YUNESKO tərəfindən muğam sənəti “Bəşəriyyətin qeyri-maddi mədəni irs reprezentativ siyahısı”na daxil edilmişdir. Ulu öndərin 2003-cü il 16 may tarixdə imzaladığı “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, muğam-dəsgahlar, zərb muğamlar, təsnif və rənglər də qorunan folklor nümunələri siyahısına salınmışdır. Həmçinin müxtəlif festivallarda, beynəlxalq müsabiqələrdə, dünyanın mötəbər mədəniyyət və musiqi tədbirlərində Azərbaycan muğamı əzəmətlə səslənmişdir. Bütün bunlar sonrakı illərdə də zəngin muğam sənətimizin inkişafı və tanıdılmasında həlledici rol oynamışdır.

Bu gün Azərbaycanda muğam sənətinə, musiqimizə dərin məhəbbət və ehtiramla yanaşı, həm də böyük diqqət və qayğı göstərilir. Ölkəmizdə elə bir musiqi tədbiri yoxdur ki, orada muğam sədası eşidilməsin. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə yaradılan və yüksək səviyyədə inşa olunaraq istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi qədim sənətə göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Ölkə başçısı muğamı Azərbaycanın milli sərvəti kimi dəyərləndirərək demişdir: ***“Muğam Azərbaycanın milli sərvətidir. Azərbaycan xalqı əsrlər boyu bu gözəl sənəti öz həyatında uca tutmuşdur, öz qəlbində saxlamışdır. Nəsildən-nəslə keçən muğam sənəti bu gün də Azərbaycanda yaşayır, qorunur, inkişaf edir. Muğam sənəti vətənpərvərlik sənətidir, muğam sənəti sevgi, məhəbbət sənətidir”.***

Muğam sənətinin qorunub saxlanması və tanıdılması istiqamətində Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Son illər ölkəmizdə bir sıra irimiqyaslı layihələr həyata keçirilmiş, muğam müsabiqələri təşkil olunmuş, 24 görkəmli muğam ifaçısının səsləndirdiyi muğam parçalarından ibarət “Qarabağ xanəndələri” albomu buraxılmış, “Muğam” jurnalı, Azərbaycan, rus və ingilis dillərində ikicildlik “Muğam ensiklopediyası” nəşr edilmişdir. Muğama dair ilk tədris vəsaiti kimi 8 diskdən ibarət “Azərbaycan muğamı” multimedia toplusu hazırlanmışdır. Azərbaycanda 2009-cu ildən Beynəlxalq Muğam Festivalına və bu festival çərçivəsində Beynəlxalq “Muğam aləmi” simpoziumunun keçirilməsinə start verilmişdir.

Naxçıvan Muxtar Respublikasında da muğam sənətinin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncamına əsasən keçirilən xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, muğamlarımız da səslənir. 2012-ci ilin muxtar respublikamızda “Milli dəyərlər ili” elan olunması isə muğam musiqisi sahəsində yaddaqalan tədbirlərlə əlamətdar olmuşdur. Həmin il keçirilən “Milli dəyərlərimiz – milli sərvətimiz” folklor və muğam müsabiqəsi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. 2013-cü ildə isə Azərbaycan Respublikasında keçirilən “Muğam müsabiqəsi – 2013” televiziya müsabiqəsinin bir mərhələsi Naxçıvanda keçirilmiş, müsabiqənin münsiflər heyətinin üzvləri, tanınmış muğam ustaları Naxçıvan Dövlət Universitetində olmuş və ustad dərsləri keçmişlər.

Qədim diyarımızda son illər xalq musiqimizin, muğamlarımızın nota köçürülməsi ilə görülən işlər də bu sahəyə göstərilən diqqət və qayğının ifadəsidir. Bu gün Naxçıvanda muğam sənətinin öyrənilməsi, təbliği və tədrisi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Musiqi Kollecində, musiqi məktəblərində muğam dərsləri tədris olunur, gənc muğam ifaçıları yetişdirilir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən muğam ustadları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşdür. Musiqimizi və muğamlarımızı yaşadan sənətkarlarımızın yubileylərinin qeyd olunması da gözəl ənənəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birgə bu il keçirdiyi “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016” da ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

*Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında muğamın inkişafına göstərilən diqqət və qayğı bu sənətin daha da zənginləşməsinə öz töhfəsini verir. Çünki muğam yalnız dünənin və bu günün deyil, həm də gələcəyin musiqisidir.*

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

# Muzey bələdçiləri üçün növbəti seminar-treninq



***Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində muxtar respublikada fəaliyyət göstərən muzeylərin bələdçiləri üçün seminar-treninq keçirilib.***

Seminar-treninqdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva “Muzey bələdçisinin davranış qaydaları” mövzusunda çıxış edib.

Qeyd olunub ki, ötən ildən başlayaraq muzey bələdçiləri üçün muxtar respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən muzeylərdə seminar-treninqlər keçirilir, muzey bələdçiləri həmin mədəniyyət müəssisələri ilə yaxından tanış olurlar. Bu seminar-treninqlərin keçirilməsində əsas məqsəd ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması, muzey bələdçilərinin nəzəri və praktik səviyyəsinin yüksəldilməsidir.

Bildirilib ki, muxtar respublikamızdakı muzeylərin fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Belə mədəniyyət müəssisələri üçün yeni binalar inşa olunur, onların maddi-texniki bazaları gücləndirilir ki, bu da muzey işinin səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Qeyd olunub ki, görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Muzeylərimizin hazırlıqlı, bilikli, xarici dilləri bilən bələdçilərlə təmin edilməsi vacib məsələlərdəndir. Muzeyə gələn insanları qarşılayan və onlara bu mədəniyyət ocağı haqqında məlumat verən bələdçilərdir. Muzey bələdçilərinin etik qaydalara əməl etməsi muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdır.

Tədbir iştirakçılarına “Muzey işinin peşə etikası kodeksi” haqqında da məlumat verilib. Muzeylərə qarşı qoyulan ən kiçik tələblər, muzey sahəsi, muzey personalı, kolleksiyaların artırılması prinsipləri, eksponatların alınmasında hüquqi normalar, kolleksiyalara qayğı, muzey peşəsi nümayəndələrinin ictimaiyyətə qarşı şəxsi məsuliyyəti kimi məsələlərdən söhbət açılıb.

Bildirilib ki, muzey bələdçiləri müxtəlif sosial qruplardan olan insanlarla işləməyi bacarmalıdır. Muzey bələdçisi hər bir ziyarətçiyə qarşı diqqətli və nəzakətli olmalı, onların suallarını diqqətlə dinləyib elmi əsaslarla cavablandırmağı bacarmalıdır.

Sonda Dövlət Bayrağı Muzeyinin ekspozisiyasına baxış olub və ekskursiyanın müzakirəsi keçirilib. Seminar-treninqdə muzey bələdçilərinin davranış qaydalarına dair metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

# Gənc idmançılar muzeyləri ziyarət ediblər

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun bir qrup idmançısının “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə ekskursiyası təşkil olunub.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun təşkilatçılığı ilə keçirilən tədbirdə 25 idmançı iştirak edib. Muzeyin direktoru Nəzakət Əsədova idmançılara muzey haqqında ətraflı məlumat verib. Bildirilib ki, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılıb. Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığının incilərindən biri olan Möminə xatın türbəsi ilə tanışlıq da idmançılarda xoş təəssürat yaradıb. Bildirilib ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Xalqın yaddaşında zaman-zaman “Atabəy günbəzi” adı ilə də qalan abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıb: “Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar”. Türbə yeraltı, yeni sərdabə və yerüstü hissələrdən ibarətdir.

Kompleksdə açıq səma altında nümayiş etdirilən abidələr haqqında isə məlumat verilib ki, bunlar muxtar respublika ərazisindən tapılmış bu maddi-mədəniyyət nümunələri, əsasən, daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələrdən ibarətdir.

Sonda idmançılar muzeydə olan eksponatlarla yaxından tanış olub və onları maraqlandıran suallar cavablandırılıb.

**Ceyhun MƏMMƏDOV**

# El sənətini yaşadanlar

***Azərbaycan xalq dekorativ-tətbiqi sənətinin qədim növlərindən biri olan xalçaçılıq muxtar respublikamızda özünəməxsus inkişaf yolu keçib. Qədim diyarımızda xalça sənətinin incəliklərini qoruyub saxlayaraq yaşadan, xalça üzərində rəngarəng naxışlar vuran, müxtəlif kompozisiya və süjetlər yaradan xalça ustaları yetişib.***



Onlardan biri də 1971-ci ildə Şahbuz rayonunun Sələsüz kəndində dünyaya göz açan Həcər Hümbətovadır. Həcər xanım söhbətinə yaddaşında qalan xatirələri danışmaqla başladı. Öyrəndik ki, xalça sənətini anası Qumru xanımdan öyrənib. Sənətə olan maraq onu Şahbuz şəhərindəki peşə-texniki məktəbin toxuculuq şöbəsinə gətirib. O, burada toxuculuq sənətinin sirlərini mənimsəyəndən sonra əmək fəaliyyətinə xalçatoxuma sexində xalçaçı kimi başlayıb. Toxuduğu xalçalar keyfiyyətinə və toxunma texnikasının orijinallığına görə çox bəyənilib. Seçdiyi sənətdə günügündən püxtələşən Həcər xanım 2010-cu ildən "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında çalışır. Burada xalçaçı kimi fəaliyyətə başlayan xalçaçı qızı az sonra xalçatoxuma sexinin baş ustası təyin ediblər. Biz sexdə olarkən qəlbimizdən bu hisslər keçdi: nə yaxşı ki xalqımızın bədii dühasını, estetik zövqünü, istək və arzularını, eləcə də bizi əhatə edən aləmi özündə əks etdirən xalçalarımız maddi dəyərlərimiz içərisində xüsusi yer tutur. Həcər xanım kimi xalça ustalarının sehrli barmaqları ilə ilmə-ilmə toxunan naxışlar orijinallığı, heyrətamiz rəng çalarları və kompozisiya zənginliyi ilə milli mədəniyyətimizin ululuğundan söhbət açır. Bu sənət incilərinin qüdrəti ondadır ki, xalqımızın tarixi, onun düşüncə tərzi, adət-ənənəsi, məişəti barədə bugünkü və gələcək nəsillərin təfəkküründə geniş və əhatəli təsəvvür yaradır.

Həcər Hümbətova deyir ki, Naxçıvan xalça qrupuna aid olan həndəsi ornamentlər, rəng və kompozisiya orijinallığı digər qruplardan əsaslı surətdə fərqlənir. Naxçıvan xalça qrupuna məxsus sənət nümunələrində nəbati ornamentlər özünəməxsus yer tutub. Xalçalarda işlədilən ornamentlərdən ən geniş yayılanının at, öküz, qoyun və dəvə olduğunu diqqətə çatdıran xalça ustası heyvan rəsmlərinin xalça üzərində təsvirinin ta qədimdən Naxçıvan xalça məktəbinə məxsus olduğunu deyir. Muxtar respublikamızda bu gün xalçaçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər Həcər Hümbətovanın da ürəyincədir. Naxçıvan şəhərində Dövlət Xalça Muzeyinin yaradılması, muzey binasının müasir tələblərə uyğun şəkildə yenidən qurulması, evlərdə xalça toxunmasının təşkili və digər tədbirlər qədim diyarımızda milli dəyərlərə ehtiramın yüksək səviyyədə olmasından soraq verməklə, bu sənət növünə marağı da xeyli artırıb.

Ənənəvi el sənətini istedad və bacarığı sayəsində qoruyub saxlayan və onu yaşadan xalça ustası Həcər Hümbətovanın əməyi dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. O, "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilib.

**Nizami ƏZİZƏLİYEV**

# Gənc həkimin ilk uğuru

***Naxçıvan Muxtar Respublika Xəstəxanasının Göz xəstəlikləri şöbəsində son günlər bir neçə ilkə imza atılıb.***

Xəstəxanada ilk dəfə olaraq göz dibində qanamanı dayandırmaq və görməni artırmaq məqsədilə 3 xəstədə 5 manipulyasiya apararkən xəstənin gözünə introvitreal avastin (bevacizumab) inyeksiyası icra edilib. Bir xəstə üzərində isə fakoemulsifikasiya üsulu ilə katarakt cərrahiyyəsi aparılıb. Bu əməliyyatlar əvvəllər təkcə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində icra edilirdi. Naxçıvan Muxtar Respublika Xəstəxanası yeni binada fəaliyyətə başlayandan sonra isə ilk dəfə gənc həkim-oftalmoloq Rövşən Nəsirov tərəfindən həyata keçirilib.

Rövşən Nəsirov Azərbaycan Tibb Universitetini bitirdikdən sonra 2011-2015-ci illərdə Ankara Universitetinin Tibb fakültəsinin Göz xəstəlikləri kafedrasında təhsil alıb. Cari ilin əvvəlindən Naxçıvan Muxtar Respublika Xəstəxanasının Göz xəstəlikləri şöbəsində çalışır. Onun nəzəri biliklərini praktikada tətbiq etmək üçün şöbədə lazımi şərait yaradılıb. Şöbə və kabinələr fəaliyyətlərinə uyğun kadr və tibbi avadanlıqlarla təchiz olunublar. Şöbədə çalışan 7 həkim-oftalmoloq biomikroskopu, autrorefraktokeratometr, PUF-tonometr, fako cihazı (alcon), əməliyyat mikroskopu və digər tibbi avadanlıqlarla həm ambulator müayinə, həm də stasionar müalicə aparır. Miopiya, katarakt, konyuktivit, qlaukoma, çəpgözlük, buynuz qişa, tor qişanın xəstəliyi və sair aşkar olunaraq müalicə edilir. Müasir texnologiyalar sayəsində həm müayinə, həm də müalicə üsulları təkmilləşib. Belə ki, daha dəqiq diaqnoz, daha incə əməliyyatlar və daha qısa sağalma dövrü olan əməliyyatlar aparılır. Tibb elminin nailiyyətlərinin qısa zamanda təcrübədə tətbiq edilməsi əhali arasında göz xəstəliklərinin və görmə üzrə əlilliyin azalmasına stimul verir.

Naxçıvan Muxtar Respublika Xəstəxanası tərəfindən oftalmoloji xidmətin koordinasiyasına ciddi nəzarət edilməsi, göz əməliyyatlarının yerli mütəxəssislər tərəfindən yüksək səviyyədə aparılması üçün kadrların hazırlığına diqqətin daha da artırılması və bunun həyata keçirilməsinə nail olunması bu səhiyyə müəssisəsində oftalmoloq ixtisası üzrə kadr çatışmazlığının aradan qaldırılmasına şərait yaradıb. Hazırda oftalmoloji xəstələrin müayinə və müalicə protokollarından geniş istifadə olunmasına nəzarətin daha da gücləndirilməsi, göz xəstələrinin dispanserizasiya işinin daha da yaxşılaşdırılması, oftalmoloq ixtisası üzrə işləyən həkim və orta tibb işçilərinin peşə və bacarıqlarının artırılması üçün onların vaxtaşırı ixtisasartırma kurslarında və iş yerlərində təcrübə keçməsinə diqqətin artırılması, göz xəstəliklərinin vaxtında aşkar edilməsi üçün profilaktik müayinə tədbirlərinə geniş yer verilməsi və digər məsələlər mühüm vəzifələr kimi qarşıya qoyulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ordubad rayonu üzrə 2016-2017-ci tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Rayon mərkəzindən olan məsafə / km | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Rəsm və təsviri incəsənət | | Fiziki tərbiyə | | GÇH | | Musiqi | | Texnologiya | | İbtidai sinif | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Şəhər 1 №-li tam orta məktəb | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 |
| 2. | Şəhər 3 №-li tam orta məktəb | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | 3 | 36 |
| 3. | Şəhər İnternat tam orta məktəbi | | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | 2 | 24 |
| 4. | Nüsnüs kənd tam orta məktəbi | 7 | | | 1 | 16 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 16 |
| 5. | Əndəmic kənd tam orta məktəbi | 3 | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | 14 | | | | | | | | | | | | | 2 | 26 |
| 6. | Gənzə kənd tam orta məktəbi | 8 | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 16 | 3 | 40 |
| 7. | Kotam kənd tam orta məktəbi | 5 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | 2 | 24 |
| 8. | Aşağı Əylis kənd tam orta məktəbi | 7 | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 14 | 2 | 28 |
| 9. | Yuxarı Əylis kənd tam orta məktəbi | 10 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 | 2 | 30 |
| 10. | Dəstə kənd 1 №-li tam orta məktəb | 12 | | | | | 1 | 18 | | | 1 | 18 | | | | | | | | | | | | | | | | | | | 1 | 18 | 3 | 54 |
| 11. | Dəstə kənd 2 №-li tam orta məktəb | 12 | | | 1 | 12 | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 18 | 5 | 66 |
| 12. | Xanağa kənd tam orta məktəbi | 13 | | | 1 | 18 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 2 | 30 |
| 13. | Dizə kənd tam orta məktəbi | 15 | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | 4 | 48 |
| 14. | Vənənd kənd tam orta məktəbi | 17 | | | 1 | 12 | 1 | 12 | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | 5 | 60 |
| 15. | Dırnıs kənd tam orta məktəbi | 25 | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | | | | | | | 3 | 36 |
| 16. | Kələki kənd tam orta məktəbi | 27 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | | | | | | 1 | 12 | 3 | 24 |
| 17. | Unus kənd tam orta məktəbi | 28 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | 2 | 24 |
| 18. | Çənnəb kənd tam orta məktəbi | 26 | | | | | 1 | 18 | | | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | 2 | 32 |
| 19. | Düylün kənd tam orta məktəbi | 19 | | | 1 | 12 | 1 | 12 | | | 1 | 18 | | | | | 1 | 16 | | | | | | | | | | | | | | | 4 | 58 |
| 20. | Üstüpü kənd tam orta məktəbi | 27 | | | | | | | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 21. | Azadkənd tam orta məktəbi | 23 | | | | | | | 1 | 13 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 3 | 37 |
| 22. | Aza kənd tam orta məktəbi | 21 | | | | | | | | | 1 | 18 | | | | | | | | | | | 1 | 16 | | | | | | | 2 | 32 | 4 | 66 |
| 23. | Sabirkənd tam orta məktəbi | 20 | 1 | 18 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 2 | 30 |
| 24. | Baş Dizə kənd tam orta məktəbi | 24 | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 18 | | | | | | | | | | | | | 2 | 30 |
| 25. | Gilançay kənd tam orta məktəbi | 26 | | | | | | | | | 1 | 18 | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 3 | 42 |
| 26. | Biləv kənd tam orta məktəbi | 41 | 1 | 24 | | | 1 | 20 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 20 | 4 | 76 |
| 27. | Parağa kənd tam orta məktəbi | 46 | | | | | 1 | 20 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 20 |
| 28. | Bist kənd tam orta məktəbi | 51 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 29. | Xurs kənd tam orta məktəbi | 60 | | | | | | | | | | | 1 | 12 | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | 3 | 36 |
| 30. | Nəsirvaz kənd tam orta məktəbi | 60 | | | 1 | 20 | | | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | | | | | | | | 3 | 32 |
| 31. | Nürgüt kənd tam orta məktəbi | 62 | | | | | 1 | 18 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 30 |
| **Cəmi:** | | | **2** | **42** | **11** | **152** | **10** | **154** | **2** | **25** | **5** | **84** | **11** | **134** | **1** | **14** | **10** | **124** | **7** | **92** | **1** | **12** | **4** | **52** | **2** | **0** | **2** | **24** | **1** | **12** | **11** | **172** | **80** | **1093** |

## Sədərək rayonu üzrə 2016-2017-ci tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasında məsafə | Ehtiyac olan ixtisas: Azərbaycan dili və ədəbiyyat | | Xarici dil (ingilis) | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Texnologiya | | Rəsmxət | | Fiziki tərbiyə | | GÇH | | Musiqi və nəğmə | | Rus dili | | İbtidai sinif | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Sədərək kənd 1 nömrəli tam orta məktəb | 8 km | - | - | 2 | 36 | 1 | 18 | 1 | 12 | - | - | 1 | 12 | 1 | 18 | - | - | 1 | 12 | 1 | 12 | - | - | - | - | - | - | 1 | 12 | - | - | 3 | 54 | 12 | 186 |
| 2. | Sədərək kənd 2 nömrəli tam orta məktəb | 2 km | - | - | 1 | 18 | 1 | 12 | - | - | - | - | - | - | 1 | 12 | - | - | - | - | - | - | 1 | 12 | - | - | - | - | - | - | - | - | 3 | 42 | 7 | 96 |
| 3. | Heydərabad qəsəbə tam orta məktəbi | - | - | - | 1 | 18 | - | - | - | - | 1 | 12 | - | - | - | - | - | - | 1 | 12 | - | - | - | - | - | - | - | - | 1 | 12 | - | - | - | - | 4 | 54 |
| 4. | Qaraağac kənd tam orta məktəbi | 16 km | - | - | - | - | 1 | 12 | - | - | - | - | - | - | 1 | 12 | - | - | 1 | 12 | - | - | - | - | - | - | - | - | - | - | - | - | 1 | 19 | 4 | 55 |
| **Cəmi:** | | - | - | - | **4** | **72** | **3** | **42** | **1** | **12** | **1** | **12** | **1** | **12** | **3** | **42** | - | - | **3** | **36** | **1** | **12** | **1** | **12** | - | - | - | - | **2** | **24** | - | - | **7** | **115** | **27** | **391** |

### İtmişdir

Rəhimov Yusif Sadıx oğlunun adına 1992-ci ildə Naxçıvan Politexnik Texnikumu tərəfindən verilmiş LT-026893 nömrəli diplom itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə vətəndaşı Emrah Uçarın adına Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov Tofiq Yusif oğlunun adına olan 2580 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Məsul katib:
Muxtar Məmmədov

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 642